# AZƏRBAYCAN VETERANI

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının orqanı

21 (94) 15 dekabr 2017-ci il | İctimai-siyasi qəzet


## İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib

Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 14 il keçir.

Dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.



Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın dövlət himni səsləndi.

Dövlət başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarəti mərasimində Baş nazir Artur Rasi-zadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyevin adı ilə bağlıdır. Qeyri-adi şəxsiyyəti, siyasət və dövlət xadiminə xas olan böyük istedadı ilə fərqlənən, xarizmatik lider olan Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmişdi. 1969-cu ildə respublika rəhbərliyinə gələn Heydər Əliyev, əslində, sosial-iqtisadi böhran keçirən Azərbaycanı 1970-1980-ci illərdə keçmiş İttifaqın ən qabaqcıl respublikalarından biri səviyyəsinə çıxarmışdı. Tədqiqatçılar haqlı olaraq vurğulayırlar ki, müasir mərhələdə Azərbaycanın dövlət suverenliyi və iqtisadi müstəqilliyi məhz həmin illərdə təməli qoyulmuş potensiala əsaslanır.

1993-cü ilin yayında, müstəqilliyini yenicə bərpa etmiş Azərbaycanın taleyinin Tanrının ümidinə qaldığı bir vaxtda xalq özünün və ölkənin gələcəyini Heydər Əliyevə etibar etdi. Bu, böyük Qayıdış idi və Ulu Öndər müdrikliyi, zəngin siyasi və dövlətçilik təcrübəsi, sarsılmaz qətiyyəti, yenilməz iradəsi sayəsində ölkəni, xalqı, gənc müstəqil dövləti labüd fəlakətlərdən qurtardı. Qədirbilən



Azərbaycan xalqı dahi oğlunun bu əvəzsiz xidmətlərini heç vaxt unutmur.

Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyevin vəfatından ötən illər ərzində görkəmli şəxsiyyətin, əbədiyaşar Prezidentimizin məzarı xalqımızın müqəddəs ziyarətgahına, gənclərin and yerinə çevrilib. Bütün il boyu insanlar buraya gəlir, xalqımızı, Azərbaycanı dünyaya tanıdan, özü də dünyanın görkəmli şəxsiyyətlərindən biri kimi tanınan böyük azərbaycanlının xatirəsinə ehtiramlarını ifadə edirlər.

Azərbaycanın dahi oğlu Heydər Əliyevin əbədiyyətə qovuşmasının 14-cü ildönümü günü – dekabrın 12-də paytaxt sakinləri, respublikamızın rayon və şəhərlərinin nümayəndələri, xarici ölkələrdən gəlmiş qonaqlar Fəxri xiyabanda xalqımızın Ümummilli Liderinin xatirəsini dərin ehtiramla yad edir, onun məzarı önünə əklillər, gül dəstələri qoyur, müdrik dövlət xadiminə Allahdan rəhmət diləyirlər.

## Ulu öndər Heydər Əliyevin veteranlara diqqət və qayğısı minnətdarlıq hissi ilə xatırlanıb

***Azərbaycanda Böyük Vətən müharibəsi veteranlarına diqqət və qayğı siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu Öndər veteranların problemlərini daim xüsusi diqqətdə saxlayıb və bu problemlərin həlli üçün müvafiq göstərişlər verib.***



Bu fikirlər dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında ulu öndər Heydər Əliyevin vəfatının 14-cü ildönümü ilə əlaqədar keçirilən anım tədbirində səsləndirilib.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabanda xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə gül dəstələri düzülüb.

Respublika Veteranlar Təşkilatının əməkdaşlarının, veteranların və ziyalıların iştirak etdikləri anım mərasimində əvvəlcə ulu öndər Heydər Əliyevin, Azərbaycanın dövlət müstəqilliyi, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən, Azərbaycan xalqı üçün əvəzsiz xidmətlərindən danışıb. Bildirib ki, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev tarixin yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Azərbaycan tarixinin taleyüklü hadisələrlə dolu otuz ildən çox mühüm bir dövrü məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Bu dövrdə Heydər Əliyev öz məqsədyönlü fəaliyyəti ilə Azərbaycan dövlətini zamanın ən çətin sınaqlarından çıxararaq, ölkənin ictimai-siyasi, iqtisadi və mədəni-mənəvi tərəqqisinə nail olub. Azərbaycanın 1969-cu ildən sonrakı dövrü tarixə Heydər Əliyev dövrü kimi əbədi həkk olunub. 1969-1982-ci illərdə ictimai həyatın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. T.Ağahüseynov, həmçinin Ulu Öndərlə bağlı xatirələrini bölüşüb.

Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ulu öndər Heydər Əliyevin keçdiyi həyat yolundan, onun Azərbaycan xalqı qarşısındakı tükənməz xidmətindən söz açıb. Cəlil Xəlilov deyib: “Heydər Əliyev hakimiyyətdə olduğu dövrdə daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı dövlət kimi zamanın ağır sınaqlarından çıxarıb. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilib. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb edib, dünya azərbaycanlılarının Ümummilli Liderinin heyranlıq doğuracaq dərəcədə coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılıb”.

Qeyd olunub ki, Azərbaycan xalqı milli dövlətçiliyin dağılmaq təhlükəsi qarşısında qaldığı, ən ağır günlərini yaşadığı bir zamanda - 1993-cü ilin iyununda mövcud hakimiyyətin dəyişilməsini təkidlə tələb edib və həmin vaxtdan taleyini öz xilaskarına etibar edib. Xalqının təkidli dəvətini qəbul edən Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı



günü müstəqil Azərbaycan tarixinə Milli Qurtuluş Günü kimi yazılıb.

Sonra çıxış edən İkinci Dünya müharibəsi veteranları ulu öndər Heydər Əliyevin gördüyü işlərdən bəhs edib, Ümummilli Liderlə bağlı xatirələrini bölüşüblər. Veteranlar Ulu Öndərin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə hazırda Azərbaycanın qazandığı böyük nailiyyətlərdən qürur duyduqlarını bildiriblər, onlara göstərilən diqqət və qayğıdan danışıblar.

AZRBAYCAN VETERANI

# Respublika Veteranları Təşkilatının VII plenumu keçirilib




Dekabrın 5-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VII plenumu keçirilib.

Tədbirdə dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, təşkilatın üzvləri, müharibə, əmək, Silahlı Qüvvələr və Qarabağ müharibəsi veteranları iştirak ediblər.

Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq gündəlik barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın bu il ərzindəki fəaliyyəti, 2018-ci il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.




Gündəlik təsdiq olunduqdan sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təşkilatın cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib. Ulu öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Diqqətə çatdırıb ki, veteranların sosial müdafiəsinin gücləndirilməsi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Məqsəd vətənpərvər insanların yüksək statusunun daim nümayiş etdirilməsi, onların sosial müdafiəsinin, cəmiyyətdəki mövqeyinin gücləndirilməsi, eləcə də vətənpərvərlik hisslərinin təşviq



olunmasıdır. Respublika Veteranlar Təşkilatı bu qayğı və diqqəti yüksək qiymətləndirir, fəaliyyətini daha səmərəli qurmağa çalışır. Hesabat dövründə təşkilatın nüfuzunun yüksəldilməsi, veteran təşkilatlarının ictimai həyatda fəallığının artırılması istiqamətində mühüm addımlar atılıb. Veteranların sosial problemlərinin həlli onların fəallığının yüksəlməsinə, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində daha yaxından iştirakına müsbət təsir göstərib.

Respublika Veteranlar Təşkilatının keçirdiyi tədbirlər barədə ətraflı məlumat verən C.Xəlilov bildirib ki, qurum gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların Azərbaycan dövlətinə və xalqına sədaqət ruhunda yetişmələri üçün yerli və beynəlxalq səviyyəli mədəni-kütləvi, ictimai-siyasi tədbirlər keçirib. Hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında bir sıra aktual problemlər, o cümlədən veteranların sosial müdafiəsi məsələsi müzakirə edilib, onlara əməli kömək göstərilib. Bu il Respublika Veteranlar Təşkilatına ayrılan vəsaitin xeyli hissəsinin müalicəyə ehtiyacı olan İkinci Dünya müharibəsi veteranlarına çatdırılması təmin edilib. Ötən müddətdə təşkilata daxil olmuş 150-dən çox müraciətlə əlaqədar müvafiq qurumlara məktublar göndərilib, problemlər əsasən həll olunub.

Azərbaycan dövləti tərəfindən veteranlara göstərilən diqqət və qayğıdan danışan C.Xəlilov deyib ki, hər il alman faşizmi üzərində Qələbənin ildönümü ərəfəsində Prezident İlham Əliyev müharibə veteranları ilə görüşərək onların problemləri ilə maraqlanır. İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləğinin ildən-ilə artırılması, eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində imzalanmış çoxsaylı fərman və sərəncamlar bu sahəyə dövlət qayğısının əyani göstəricisidir. O, bu diqqət və qayğıya görə veteranlar adından dövlətimizin başçısına minnətdarlığını bildirib.

Gələn il görüləcək işlərdən danışan məruzəçi deyib ki, Respublika Veteranlar Təşkilatının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi ilə bağlı müvafiq tədbirlər planı hazırlanıb.




Sonra məruzə ətrafında çıxışlar olub, təşkilati məsələlərə baxılıb.

Qurumun rayon təşkilatlarının sədrləri və digərləri çıxış edərək hesabat dövründə görülən işlərdən danışıblar.

Plenumda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Respublika Veteranlar Təşkilatının ölkəmizin ictimai-siyasi həyatında fəallığı ilə seçilən qurumlardan biri olduğunu bildirib. Qeyd edib ki, təşkilat öz sıralarında fəal vətəndaşlıq mövqeyi ilə seçilən vətənpərvər veteranları birləşdirir, onların sosial müdafiəsinin təmin olunması istiqamətində fəal iş aparır. Təşkilatın mühüm missiyalardan biri də qarşıda duran vəzifələrin icrası üçün dövlət orqanları ilə sıx əməkdaşlığın qurulması, eyni zamanda, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin dəstəklənməsidir. Bu gün Prezident İlham Əliyevin siyasi kursunun dəstəklənməsində, onun əsl mahiyyətinin gənclərə izah edilməsində, cəmiyyətin bütün üzvlərinə çatdırılmasında, eləcə də praktiki şəkildə həyata keçirilməsində Respublika Veteranlar Təşkilatı, o cümlədən veteranlar fəal rol oynayırlar.

Diqqətə çatdırılıb ki, otuz il əvvəl yaranan Respublika Veteranlar Təşkilatı müstəqillik illərindən etibarən ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etməyə başlayıb. Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra veteranların statusunun bərpasına, onların nüfuzunun artırılmasına xüsusi diqqət yetirilib. Məhz Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 9 May - Qələbə Günü dövlət bayramı kimi yenidən qeyd olunmağa başlayıb. Hər il veteranlarla müntəzəm görüşlər təşkil olunur, onların sosial problemlərinin həllinə diqqətlə yanaşılır. Bu siyasəti uğurla davam etdirən Prezident İlham Əliyev veteranlarımıza diqqət və qayğı siyasətini ən yüksək səviyyədə həyata keçirir. Təqdirəlayiq haldır ki, veteranlarımız da bu diqqət və qayğını yüksək qiymətləndirirlər.

Hazırda Azərbaycanın müharibə şəraitində yaşadığını vurğulayan Ə.Mehdiyev deyib: “Prezident İlham Əliyev Ali Baş Komandan kimi tez-tez cəbhə bölgələrinə səfərlər edir, şəxsi heyətlə görüşlər keçirir, hərbçilərimizin vəziyyəti ilə maraqlanır, tapşırıq və tövsiyələrini verir. Bu gün Azərbaycan Ordusunun döyüş qabiliyyətinin artırılması istiqamətində mühüm işlər görülür, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsinə xüsusi diqqət yetirilir. Məhz bu baxımdan gənclərimizin hərbi vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyəsi işində veteranlarımızın üzərinə böyük məsuliyyət düşür.



Veteranlar bu işdə fəal iştirak edirlər. Onlar üzərlərinə düşən məsuliyyəti dərk edərək bu istiqamətdə səylərini daha fəal şəkildə davam etdirməlidirlər”.

Dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın beynəlxalq aləmdə uğurlu xarici siyasət yürütdüyünü vurğulayan Prezident Administrasiyasının rəsmisi qeyd edib ki, bu istiqamətdə dövlət orqanları ilə yanaşı, ictimai təşkilatların da üzərinə böyük vəzifələr



düşür. Respublika Veteranlar Təşkilatının əsas fəaliyyət istiqamətlərindən biri də beynəlxalq arenada Azərbaycanın haqq səsinin dünya ictimaiyyətinin diqqətinə çatdırılmasından ibarətdir. Təşkilat istər MDB çərçivəsində fəaliyyət göstərən veteran birliklərinin, istərsə də dünya veteranlar təşkilatının üzvü kimi bu sahədə fəallığı ilə seçilir.

Respublika Veteranlar Təşkilatı dövlətin və Prezident İlham Əliyevin qayğısına adekvat olaraq öz fəaliyyəti ilə buna cavab verməyə çalışır. Ə.Mehdiyev əmin olduğunu bildirib ki, bu sağlam münasibət gələcəkdə də qorunacaq. Respublika Veteranlar Təşkilatı dövlətin, Azərbaycan ictimaiyyətinin hər bir çağırışına daha fəal cavab verəcək və qarşıda duran məsələlərin həll olunması üçün öz potensialından səmərəli istifadə edəcək.

Diqqətə çatdırılıb ki, bu gün Respublika Veteranlar Təşkilatı Azərbaycanda veteranlar hərəkatına öncüllük edir və yüksək fəallığı ilə seçilir. Bu qurumun ətrafında ağsaqqal, zəngin təcrübəyə malik vətənpərvər insanlar toplaşıblar. Buna görə də Respublika Veteranlar Təşkilatı ölkəmizdə veteran hərəkatının qüvvələrinin səfərbər olunmasına, bu potensialın vahid amala yönəldilməsinə çalışmalıdır.

Təşkilatın hesabat dövründəki fəaliyyətinin uğurlu olduğunu qeyd edən Ə.Mehdiyev bu qurumdakı sağlam, işgüzar mühiti qoruyub saxlamağın vacibliyini vurğulayıb. Prezident Administrasiyasının rəsmisi




veteranlarımızın Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, dövlətimizin başçısının həyata keçirdiyi siyasəti fəal müdafiə etmələrini yüksək qiymətləndirib, təşkilata gələcək fəaliyyətində uğurlar arzulayıb.

Sonra Respublika Veteranlar Təşkilatının Nəzarət-Təftiş Komissiyasının sədri Cahangir Nəsirov, Əməkdar İncəsənət Xadimi, Prezident təqaüdçüsü, polkovnik Abdulla Qurbani, Böyük Vətən müharibəsi veteranı Fatma Səttarova və başqaları çıxış edərək yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini



qeyd edib, qarşıda duran vəzifələrdən danışıblar. Çıxışlarda ötən ilin aprelində düşmən üzərində mühüm qələbə qazanan Azərbaycan əsgərinin döyüş ruhunun yüksəldilməsində veteranların misilsiz rolu xüsusi vurğulanıb. Bildirilib ki, bütün bunlar ölkə rəhbərliyinin respublikamızda veteran hərəkatına və Azərbaycan veteranlarına göstərdiyi diqqət və qayğının nəticəsidir. Plenum iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Azərbaycan Prezidentinin ətrafında sıx birləşərək onu dəstəklədiklərini bildiriblər.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən C.Xəlilov deyib ki, Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin sentyabrın 12-də keçirilən iclasının qərarı ilə təşkilatın sədri vəzifəsinin icrası istefada olan general-polkovnik Tofiq Ağahüseynova həvalə edilib. O, çox qısa müddətdə təşkilatın nüfuzunun daha da yüksəldilməsi istiqamətində mühüm işlər görüb. Bu, əminlik yaradır ki, böyük təcrübəyə malik Tofiq Ağahüseynov təşkilatın sədri vəzifəsinin öhdəsindən layiqincə gələcək.

Sonra Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin qərarı plenumun səsverməsinə çıxarılıb və general-polkovnik Tofiq Ağahüseynov təşkilatın sədri vəzifəsinə təsdiqlənib.

Daha sonra Respublika Veteranlar Təşkilatı Rəyasət Heyətinin yeni tərkibi səsə qoyularaq təsdiq edilib.

VII plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının 2018-ci il üçün tədbirlər planının təsdiq edilməsi barədə qərar qəbul olunub.

Plenumda hesabat məruzəsi və Respublika Veteranlar Təşkilatının cari ildəki fəaliyyəti qənaətbəxş hesab edilib. Təşkilatın ölkəmizin ictimai-siyasi həyatında rolu yüksək qiymətləndirilib.

Sonda bir qrup şəxsə Respublika Veteranlar Təşkilatının medalları təqdim olunub.

# Azərbaycan nümayəndələri “Qaliblərin Balı”nda iştirak etmişlər

Artıq 12 ildir ki, dekabr ayının ilk günlərində, Moskva uğrunda döyüşlərin ildönümü ərəfəsində Rusiya Federasiyasının paytaxtında MDB ölkələri nümayəndələrinin iştirakı ilə “Qaliblərin Balı” adlı tədbir keçirilir. Bir ənənə şəklini alan bu genişmiqyaslı tədbirdə MDB ölkələrindən olan İkinci Dünya Müharibəsi veteranları, veteran təşkilatları Mərkəzi Aparatının əməkdaşları, Rusiya Federasiyasının Müdafiə, Mədəniyyət nazirliklərinin rəsmləri, tanınmış hərbi və ictimai xadimlər iştirak edirlər. İctimaiyyətin, medianın diqqət mərkəzində olan bu tədbir bir qayda olaraq yüksək səviyyədə təşkil olunur və Rusiya KİV-də geniş işıqlandırılır.

M.Liepa və Birləşmiş metallurgiya kompaniyasının təşkilatçılığı və MDB ölkələrinin İkinci dünya müharibəsi veteranlarının iştirak ilə baş tutmuşdur. Həmin tədbirdə Azərbaycanı İkinci dünya müharibəsi veteranı Qara Sarıyev, Respublika Veteranlar Təşkilatının şöbə müdirləri, ehtiyatda olan polkovniklər Adil Haqverdiyev, Lətif Babayev, mütəxəssis İsmayıl İsmayılov təmsil etmişlər. Təəssüf ki, səfər ərəfəsində səhhətlərində problem yaranması səbəbindən İkinci dünya müharibəsi veteranları Seyfulla Baxışov və Ulduz Kəngərli “Qaliblərin Balı”na qatıla bilməmişlər.

Qaliblərin 12-ci Balı İkinci dünya müharibəsinin gedişi və keçmiş





“Qaliblərin Balı” adlanan növbəti, 12-ci tədbir cari ilin dekabr ayının 2-də Moskva şəhərində yerləşən Qələbə Mərkəzi muzeyində

SSRİ-nin bu müharibədə iştirakına, eləcə də müharibədən sonrakı quruculuq illərinə həsr olunmuş geniş kompozisiyanın nümayişi ilə başlanmışdır. Alman faşizmi üzərində qələbəyə aparan yolun bütün mühüm mərhələlərinin, arxa cəbhənin həmin qələbənin əldə olunmasında iştirakının və müharibədən sonrakı bərpa işlərinin əksini tapdığı kompozisiya böyük maraq doğurmuşdur. Kompozisiya müharibənin od-alovundan çıxmış, xüsusilə bu gün yaşı 100-ü haqlamaqda olan insanlar tərəfindən həyəcan və göz yaşları ilə qarşılanmışdır. Sonra Rusiya TV-lərinin canlı yayımladığı bayram tədbiri - “Qaliblərin Balı” başlanmışdır. Müharibənin canlı şahidləri, RF-nin rəsmi dövlət və ictimai təşkilatlarının nümayəndələrinin çıxışlarının yer aldığı, rəsmi təbriklərin oxunduğu tədbirdə Rusiya Federasiyası və digər ölkələrin tanınmış incəsənət xadimlərinin ifasında vətənpərvərlik, o cümlədən, torpaq, ana, müharibə, qələbə haqqında mahnılar səsləndirilmişdir.

Azərbaycan nümayəndə heyətinin üzvləri tədbir çərçivəsində media nümayəndələrinə ölkəmizin İkinci dünya müharibəsində yaxından iştirakı, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülmələri, qanlı döyüşlərdə 300 mindən çox soydaşımızın həyatlarını itirməsi, Azərbaycan xalqının bəşəriyyətin dəhşətli bəladan xilası naminə arxa cəbhədəki fədakar əməyinə dair məlumatlar çatdırmışlar. Eləcə də digər ölkələrin veteranları və veteran təşkilatlarının nümayəndələri ilə olan söhbətlərində Azərbaycanda 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edilməsi, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərilməsi, Azərbaycan Veteranlar Təşkilatının qarşılıqlı əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyi bildirilmişdir.

# Şəhid və şəhid ailəsi statusu verilməsi qaydası, onların imtiyazları barədə “Azərbaycan Veteranı” qəzetinin redaksiyasına sual daxil olmuşdur

***Bu suala Respublika Veteranlar Təşkilatının baş mütəxəssisi, hüquqşünas Əliş Əliyev cavab verir.***

Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 saylı qərarı ilə tənzimlənir.

Bu qaydalar Azərbayacan Respublikasının azadlığı, istiqlaliyyəti, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olan, hərbi əməliyyatda itkin düşmüş və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxslərin və onların ailələrinin statusunun və sosial müdafiəsinin tənzimlənməsi, həyata keçirilməsi üzrə əsas tələbləri müəyyən edir.

Beləliklə, Şəhid - Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş, hərbi əməliyyatla əlaqədar itkin düşən və qanunvericiliklə müəyyən edilmiş qaydada ölmüş hesab edilən şəxsdir.

Aşağıdakılar şəhid hesab edilirlər:

1990-cı ilin yanvarında Bakı şəhərində, Lənkəran və Neftçala rayonlarında faciəli hadisələr nəticəsində həlak olanlar;

11 dekabr 1988-ci ildə Leninakanda qəzaya uğrayan təyyarədə həlak olmuş şəxslər;

Azərbaycan Respublikasında 1988-ci ildən 1990-cı ilin yanvar ayınadək olan dövrdə Sovet Ordusunun qeyri-qanuni hərəkətləri və ya manevrləri nəticəsində həlak olmuş vətəndaşlar;

Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar;

Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan hərbi əməliyyatlar zamanı həlak olmuş və itkin düşmüş hərbi qulluqçular;

Azərbaycan Respublikasının azadlığı, suverenliyi və ərazi bütövlüyü ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş digər hadisələrdə, o cümlədən atəşkəs dövründə döyüş şəraitində olan hərbi hissələrdə və ya daxili işlər, dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarında döyüş tapşırığının və ya döyüş təminatı ilə bağlı tapşırıqların yerinə yetirilməsi üzrə xidməti vəzifəsinin icrası zamanı həlak olmuş, itkin düşmüş və məhkəmənin qərarına əsasən ölmüş hesab edilmiş şəxslər;

Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti vəzifələrinin icrası zamanı həlak olmuş və ya itkin düşmüş hərbi qulluqçular.

Şəhid ailə üzvləri aşağıdakılar hesab olunurlar:

arvadı (əri);

valideynləri;

18 yaşına çatmamış uşaqları, 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı əlil övladları;

qardaşları və bacıları - uşaq evlərində tərbiyə olunanlar;

babalar və nənələr, qanunla onları saxlayan şəxs yoxdursa;

əyani təhsil müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasında təhsil aldıqda 23 yaşa çatanadək ailə üzvü hesab edilirlər.

Şəhid ailəsi statusunu almış ailə üzvlərinə qanunvericiliklə müəyyən edilmiş təminatlar (güzəştlər) aşağıdakı qaydada verilir;

Mənzil şəraitini yaxşılaşdırmağa ehtiyacı olan şəhid ailələri yaşayış sahəsi ilə birinci növbədə təmin olunurlar;

Şəhid ailəsinə onun arzusuna görə fərdi mənzil tikintisi üçün məqsədli güzəştli ssuda, yaşadığı yerdən asılı olaraq qanunvericilikdə nəzərdə tutulmuş ölçüdə torpaq sahəsi, habelə bağçılıq birliyinə (kooperativə) qəbul zamanı üstünlük verilir;

Şəhid və şəhid ailəsi statusunun verilməsi məsələsinə maraqlı şəxsin müraciəti və dövlət orqanlarının və ya müvafiq hərbi hissənin vəsatəti ilə baxılır.

Şəxsin şəhid hesab edilməsi ölüm haqqında şəhadətnamə, məhkəmə qətnaməsi, hərbi hissənin arayışı əsasında təsdiq olunur. Hərbi hissənin arayışında Azərbaycan Respublikasının 1994-cü il 23 sentyabr tarixli 886 nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Qarnizon və qarovul xidmətləri Nizamnaməsi”nin 16 saylı əlavəsinin 1.4.2-ci maddəsində göstərilən məlumatlar əks edilir.

Şəhid ailəsi statusu gizir və zabit heyəti üçün Müdafiə Nazirliyinin, Daxili İşlər Nazirliyinin, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidmətinin, Dövlət Sərhəd Xidmətinin kadrlar idarəsi, digər hərbi qulluqçulara hərbi qeydiyyatda olduqları Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin müvafiq olaraq yerli idarə, şöbə və bölmələri, mülki vətəndaşlara isə rayon (şəhər) icra hakimiyyəti orqanlarının verdiyi arayışlarla təsdiq olunur.

Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizlik Xidməti, Xarici Kəşfiyyat Xidməti, Dövlət Sərhəd Xidməti və rayon (şəhər) icra hakimiyyəti orqanları şəhid və şəhid ailəsi hesab edilməsi üçün müraciət və vəsatətləri dərhal qəbul edib, bir aydan gec olmayaraq «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə güzəştlər haqqında» Azərbaycan Respublikası Qanununa və bu Qaydalara müvafiq surətdə arayış verməlidir.

Şəhid ailələrinə vəsiqə yaşadıqları ərazi üzrə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun şəhər, rayon şöbələri tərəfindən verilir.

AZƏRBAYCAN VETERANI

# Mən yanmasam, sən yanmasan, biz yanmasaq, necə qaranlıqlar çıxar aydınlığa?!

***Şərəfli xidmət və döyüş yolu: Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülən, Milli Ordunun zabiti, Aprel döyüşlərində şəhid olmuş mayor Samid İmanov***

İmanov Samid Gülağa oğlu 1981-ci ildə Neftçala rayonunun Sovetabad qəsəbəsində dünyaya göz açıb.



1998-ci ildə Neftçala rayonunun 1-saylı orta məktəbini bitirmiş və həmin il Ali Hərbi Məktəbə daxil olmuş, 2003-cü ildə Ali Hərbi Məktəbi fərqlənmə ilə bitirmişdir.

Türkiyə Cumruhiyyətində “Daxili təhlükəsizlik əməliyyatlarının planlaşdırılması və icrası”, “Komando təlimi və paraşütdən sərbəst atlayış” kurslarında, habelə “Anadolu-2007” ,”Anadolu Qartalı -2007 birgə taktiki təlimlərində”, Pakistanda “Ləpirçi” və “Antiterror” kurslarında, İsveçrə krallığında “Dağ təlimi” kursunda, Rumuniya Respublikasında dağa dırmanma üzrə təlimatçı kursunda iştirak etmişdir.

2004-cü ilin iyun ayından Xüsusi Təyinatlı hərbi hissədə “Qrup komandirinin müavini, qrup komandiri, bölük komandiri, dəstə komandiri və hərbi hissənin qərargah rəisi, hərbi hissə komandirinin müavini vəzifələrində xidmət etmişdir.

Xidməti müddətində 6 medalla təltif olunan az sayda hərbiçilərdən biri olub.

Şəhid olmamışdan öncə Genştabda son kursda oxuyurdu (gələcəkdə general rütbəsinə real namizədlərdən olduğu üçün nazirlik tərəfindən göndərilmişdi).

Bundan başqa, Zakir Həsənovun bir müddət mühafizə xidmətinin rəisi olub, daha sonra öz istəyilə yenidən xüsusi təyinatlı hərbi hissəyə qayıtmış, hərbi hissənin qərargah rəisi və xüsusi təyinatlı qoşunun komandanının köməkçisi vəzifəsini icra etmişdir. Samid İmanov göstərdiyi qəhramanlıqlara görə, kursant vaxtı mərhum prezident Heydər Əliyev tərəfindən və Prezident İlham Əliyev tərəfindən iki dəfə qəbul edilərək mükafatlandırılmışdır.

Mayor Samid İmanovun başçılıq etdiyi dəstələr onun yüksək komandirlik bacarığının sayəsində düşmənə ağır zərbələr vurmuş, dəfələrlə düşmənin arxasına keçmiş, komandanlığa çox vacib materiallar gətirmişdir.

2014-cü il avqust ayında ermənilərin təxribatının qarşısının almaq üçün Samidin dəstəsi əməliyyat keçirmiş 20-yə yaxın erməni məhv edərək geriyə qayıtmışdır.

2016-cı ilin aprelin 3-dən 4-nə keçən gecə ömrünü Vətənə həsr etmiş zabitimizin son döyüşü olmuşdur. Yaralanan cəsur komandir əsgərlərinin onu döyüş meydanından çıxartmasına etiraz etmiş, yaralı əsgərinin (gizir) çıxardılmasını əmr etmişdir,



silahdaşlarının etirazına baxmayaraq əmrin icra edilməsi üçün qəti göstəriş vermişdir.

Ərazidən uzaqlaşan qrup qısa zamanda təhlükəli olmasına baxmayaraq yenidən qayıtmış, amma komandiri yerində tapa bilməmişlər. Samid İmanov əsgərləri ərazidən uzaqlaşandan sonra ələ keçməmək üçün uzaqlaşmış, lakin aldığı yaralardan qan axma nəticəsində dünyasını dəyişmişdir. Şəhid olduqdan sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşdü.

# İLLƏRİN XATİRƏ YADDAŞI

Azərbaycan yazıçıları qələbənin əldə edilməsində xüsusi fədakarlıq göstərmiş xalqımızın şücaətindən bəhs edən çoxlu əsərlər yazmışlar. Səməd Vurğunun, Süleyman Rüstəmin, Məmməd Rahimin, Əhməd Cəmilin qələbəyə səsləyən şeirləri bu gün də dillər əzbəridir. İki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun əfsanəvi qəhrəmanlığı Hüseyn Abbaszadənin «General» romanında öz əksini tapmışdır. Roman dəfələrlə yüksək tirajla çap olunub, oxucuların ixtiyarına verilmişdir. Son illər ömürlərinin ahıl çağını yaşayan müharibə iştirakçılarının xatirələrini qələmə alıb kitab şəklində çap etdirmələri təqdirəlayiq haldır. İllərin uzaqlığında qalan ağrılı-acılı xatirələri veteranların öz yazılarından oxumaq daha maraqlı, daha inandırıcıdır. Belə xəbərlər Respublika Veteranlar Təşkilatının orqanı olan «Azərbaycan Veteranı» qəzetində də əksini tapır.

Böyük Vətən müharibəsi iştirakçısı Aleksandr Qritçenkonun, Respublika Veteranlar Təşkilatının sədr müavini Əfqanıstan və Qarabağ müharibələrinin iştirakçısı Cəlil Xəlilovla birgə qələmə aldığı «Xalqlar dostluğu və qələbə» (950 səhifə) kitabında Böyük Vətən müharibəsi iştirakçılarının xatirələri yer almışdır. Tank qoşunları qvardiya general-mayoru, Həzi Aslanov, Sovet İttifaqı Qəhərəmanı Məzahir Abbasov, general-polkovnik Tofiq Ağahüseynov, Sosialist Əməyi Qəhrəmanı İsmayıl İbrahimov, Veteranlar Təşkilatının ilk sədri Mustafa Nəsirov və başqaları haqqında geniş məlumat verilmişdir.

Müəlliflər canlı veteranların xatirələrini qələmə almaqla yanaşı arxiv materiallarına da əsaslanmışdır. Kitab Ulu Öndər Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin veteranlar haqqında xoş sözlər ilə başlayır. Böyük Vətən müharibəsi iştirakçıları və qəhrəmanları haqqındakı «Xalqlar dostluğu və qələbə» kitabı bir növ o illərin tarixi salnaməsidir. Kitabda 77-ci Simferopol, 223-cü Belqrad, 416-cı Taqanroq, 402-ci atıcı diviziyaları haqqında geniş və ətraflı məlumatlar verilir.

Kitabda Azərbaycanın milli atıcı diviziyalarının döyüş yollarından bəhs olunur, döyüşdükləri, azad etdikləri şəhərlərin adları da çəkilir. «Xəzərin keşiyində», «Qafqaz uğrunda döyüşlərdə» sərlövhəli məqalələrdə Xəzər dəniz döyüşçülərinin, dəniz atıcı diviziyası iştirakçılarının şücaətindən bəhs edən yazılar arxiv materiallarına əsaslanmışdır. Döyüş səhnələrini əks etdirən şəkillər də kitabda əks olunmuşdur.

Bu kitablarda arxa cəbhədə fədakarlıq göstərən azərbaycanlılardan da bəhs edilir. Müharibə iştirakçılarının ailə üzvlərinə, qohum-qardaşlarına yazdıqları məktublar da canlı xatirə olaraq maraqla qarşılanır. Bu məktublarda cəbhəçilərin vətənə və xalqa olan sevgi, qələbəyə olan inamı aydın hiss olunur. Kitabda ayrı-ayrı şəhərlərin müdafiəsində xüsusi qəhrəmanlıq göstərən döyüşçülər haqqında maraqlı yazılar verilmişdir. Bu yazılar «Odessanın qorxubilməz müdafiəçiləri», «Kursk döyüşlərinin qəhrəmanları», «Leninqradın cəsur müdafiəçiləri», «Stalinqrad döyüşünün qəhrəmanları», «Xəzər desantlarının qəhrəmanlıqları», «Azərbaycanın fəxri», «Qələbənin üç paradının iştirakçısı Ağasəf Haqverdiyev» «Tarixin yaradıcıları və şahidləri» və s. başlıqlarla dərc olunmuşdur.

Kitabda müharibəyə aid müxtəlif dövrlərdə yazılan şeirlər də toplanmışdır. Döyüşlərdə yaralanıb vəfat etmiş, Bakı şəhərindəki «Qardaşlıq» qəbiristanlığında dəfn olunmuş əsgərlərin siyahısı ilk dəfə olaraq bu kitabda verilmişdir.

«Xalqlar dostluğu və qələbə» kitabı «3 saylı Bakı Mətbəəsi» ASC-də çap olunmuşdur. A.Qritçenkonun müharibə mövzusunda yazdığı kitablardan hərbi ədəbiyyat kitabxanası yaratmaq olar.

Veteran müəllif Aleksandr Qritçenko ilə tez-tez görüşürəm. Kitelindəki (hərbi pencək) orden və medallarına hər baxanda iftixar və qürur hissi keçirir. Döyüş yolu Qafqazdan başlayan A.Qritçenko Rumıniya, Yuqoslaviya, Macarıstan, Çexoslovakiya və Avstriyanın azad olunmasında fədakarlıq göstərib. Sinəsini bəzəyən 5 orden, 48 medal fədakarlıqlarının yadigarıdır. Ona can sağlığı və yaradıcılıq uğurları arzulayıram.

Şəddat Cəfərov,
İqtisadiyyat üzrə fəlsəfə doktoru,
Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü

# ЧЕЛОВЕК БОЛЬШОЙ СУДЬБЫ

Мазаир Абасов - человек необыкновенной и интересной судьбы. Его беспримерный подвиг - образец величайшей стойкости и несгибаемого духа!

В довоенное время он закончил аэроклуб и получил пилотское свидетельство. Их называли тогда учлетами. Обращаясь в свое время к людям, кто в те годы учился в аэроклубе, как и Мазаир Абасов, напевали:

Все выше, и выше, и выше
Стремим мы полет наших птиц,
И в каждом пропеллере дышит
Спокойствие наших границ.

Все тогда, и Мазаир Абасов, находились под впечатлением подвигов Ляпидевского, Леваневского, Молокова, Каманина, Слепнева, Водопьянова и Доронина, первыми удостоенных звания Героя Советского Союза.

«Для меня, - часто любил подчеркивать Мазаир Абасов, - как и для многих моих сверстников служил примером Валерий Чкалов. С его подвигом были связаны наши игры».

Чкалову подражали. В этом замечательном летчике гармонически сочетались и смелость, и глубокое сознание своего долга перед Родиной, и верность профессии. А в нашем представлении, как тогда было и у Мазаира Абасова, все эти качества были слиты воедино. Он знал, что страна нуждается в стойких защитниках неба. Он понимал, как трудно стать настоящим летчиком, но без колебания пошел в Ейское авиационное училище. Не последнюю роль в этом деле сыграла и романтика тех лет.

На перроне вокзала будущих курсантов встречал офицер Ейского авиационного училища. Когда они после долгой дороги сошли с поезда, их уже поджидал представитель училища.

Теперь, кажется, все!. - озабоченно сказал он и, наспех оглядев бакинцев, велел построиться.

Сказать правду, выглядели будущие курсанты не очень. Одеты, кто во что горазд. В руках - у кого самодельный чемодан из выкрашенной под фибру фанеры, у кого - потрепанный рюкзак, а то и просто переплетенный веревочной петлей узелок. На лицах - либо откровенная растерянность, либо каменное спокойствие, явно напускное, нарочитое. Не говоря уже о свойственной военным подтянутости или выправке. Словом, если судить только по внешнему виду, группа бакинцев и Мазаир Абасов больше походили на неорганизованных людей, чем будущих военных летчиков.

И представитель училища это тоже заметил. Стараясь, видимо, подбодрить бакинцев, он добродушно, совсем уже не по-военному сказал:

Не форма определяет содержание, а содержание форму. Так, глядеть всем надо веселее, - и помолчав секунду-другую, скомандовал уже совсем другим тоном:

Шагом-марш!

Сказанное офицером и впрямь как-то подействовало. Они оживились, а главное, вновь ощутили покинувшую их было уверенность. Во всяком случае, до автобуса бакинская команда прошла если не печатным шагом, то вполне достойно.

А желание у всех бакинцев и Мазаира Абасова было одно - неодолимое, яростное стремление учиться новому делу. Учиться так, чтобы как можно быстрее обрести право сесть на боевой самолет. Летать - в этом коротком слове слились для них, и одержимость души, и смысл их жизни.

Но до полетов было еще далеко. Курсанты и Мазаир Абасов зубрили аэродинамику, изучали конструкции самолетов, копались в металлических потрохах авиационного мотора. Мазаир Абасов совершал полет за полетом, летал много и хорошо. Вскоре после окончания Ейского авиционного училища он уже летал на новых самолетах. На ДБ-3 - был перед войной такой самолет - он летал изо дня в день, случалось, по много часов в сутки. Летал один и во главе строя. На малой и большой высоте. Вначале был рядовым летчиком, потом - командиром экипажа.

Неожиданно Мазаира Абасова назначили командиром звена. И когда пришел приказ Командующего Черноморским флотом о его назначении, он, честно говоря, не знал, что и думать. Все произошло так неожиданно. К тому же звено считалось далеко не лучшим в авиационном полку. И тогда именно Абасову предстояло поправить дело.

Комполка, в состав которого входило звено, пожелал Мазаиру успеха и добавил в виде напутствия:

Запомните хорошенько, Абасов. С этой самой минуты, как только в ваших руках окажется командирский жезл, каждый поступок ваш, каждое слово будет на прицеле у подчиненных. Командовать звеном-служба нелегкая, но в авиации одна из самых почетных.

Тщательно продумав свой предстоящий обход строя, Абасов понял, что все то, что он хотел сказать новому экипажу, вылетело из головы. Ни единого заготовленного с вечера слова не осталось. Может, и к лучшему, подумалось вдруг ему. Что толку от слов. «Тут что-то посущественнее, чем слово, требуется». И Мазаир решил довериться своей интуиции. Вместо речи приказал подготовить тяжелый бомбардировщик ДБ-3 к вылету.

В этот же день с разрешения комполка взлетал. Под крылом увидел поле аэродрома, где выстроилось отстающее звено, которое, как Абасов твердо решил, должно вскоре стать самым благополучным в полку. А про себя, подумал: «Сейчас вам покажу кузькину мать, запалю благородным соревновательским огнем ваши души. Надо же до такой жизни дойти, ни самих себя, ни честь родного звена в грош не ставить!»

Перед строем, понятно, таких слов не скажешь, вот и решил Абасов без них высказать, что было на душе: летчики же все-таки они, должны понять.

И Мазаир выложился до конца: показал, как надо летать.

А что оставалось делать?! В тот полет он вложил буквально все, что успел накопить. Будто самый важный, самый главный экзамен в жизни сдавал. А когда почувствовал, что хватит, отошел в сторону и напряг для пикирования скорость, повернул машину над землей и так пронесся над летным полем и задранными вверх головами своих подчиненных.

А когда приземлился и вылез из машины, только и сказал:

Вот так и будем летать...

Не знал Абасов, может быть, и не следовало бы всего этого делать, но летчики его поняли.

Задеть за живое, разбередить самолюбие - способ в общем-то всегда действенный. Но Мазаир понимал, что на одном этом далеко не уедешь. Ошарашить человека можно раз, ну два. Кому-то и этого достаточно. Оглянется на себя и спросит: а я что, хуже, из другого теста сделан? Глядишь, и вырвался из застоя, переломил инерцию. Ему и самому надоело дурака валять, внешний повод, толчок требовался... А дальше уж само пошло. Но немало и таких, кто загорается не вдруг и горит медленно... Хотя среди летчиков, был убежден Абасов, лодыри если и встречаются, то крайне редко. И поэтому работой можно увлечь практически любого. Надо, полагал он, чтобы только настоящая работа была. И убеждать не наскоком да разговорами, а живым делом.

Решил Абасов для начала попробовать повысить роль командиров самолетов, экипажа и других мелких подразделений. Работа не на один день, кропотливая, требовавшая настойчивости. Можно зашевелить постепенно все звено, увлечь людей перспективой, втянуть в дело. И чувство личной ответственности, у кого оно ослабло, заново укрепить. Одновременно взялся и за дисциплину. Причем пример во всем старался подавать первым сам. Чем жестче требовательность к себе, тем легче требовать с подчиненных. Командир обязан отдавать все: свои знания, опыт, а если нужно, то и пожертвовать чем-то личным. Звено для командира - все равно что семья, где у всех одна общая жизнь, одни интересы. Потому, видно, и говорил Абасов о том, что командовать звеном тяжело, но почетно. Именно сочетание постоянной заботы о подчиненных с неуклонной требовательностью воспитывает в них чувство личной ответственности, ощущение причастности ко всему, чем живет весь коллектив. А вместе с тем, и интерес к делу.

Повезло, вспоминал после войны Мазаир, нам на командира полка. В целях совершенствования программы боевой подготовки комполка постоянно проявлял личную инициативу, разрабатывая и осуществляя на практике различные новые формы. Всего сейчас не перечислишь и не назовешь.

Хорошо помню, - продолжал Абасов, - как проводилось тогда бомбометание способом «через голову своих войск» - так мы его называли. Стоит ли говорить о чувстве ответственности, которое в подобных условиях ложилось на наших летчиков, когда они бомбили макеты «противника», вели по ним пушечно-пулеметный огонь. Стрельбы такие проводились часто, и наше звено в них регулярно участвовало, что давало возможность летчикам совершенствовать свое мастерство в условиях, максимально приближенных к боевой обстановке.

Наступила весна сорок первого, фашизм уже успел подмять под себя пол-Европы. А международная обстановка продолжала накаляться. Пакт о ненападении, заключенный с гитлеровской Германией, обмануть нас не мог. Все, в том числе и Мазаир Абасов понимали - войны не избежать. Вопрос был лишь в том, когда она начнется. Однако мало кто из них тогда думал, что война уже на пороге и пушки вот-вот заговорят. Хотя пакт о ненападении рассматривался как отсрочка, и все тогда, и Абасов, понимали, что Гитлер, не задерживаясь, отбросит его, как только сочтет это необходимым. В общем, настроения, прямо надо сказать, складывались противоречивые.

Но настроения - настроениями, а реальность заключалась в том, что страна готовилась к решительной битве с фашизмом.

Летчики бомбардировочных полков держали самолеты с подвешенными бомбами, готовые по приказу подняться в любую минуту в воздух и нанести удар по заранее расписанным целям.

Нести подобные дежурства, прямо надо сказать, было нелегко. Необходимость их понимал каждый летчик, в том числе и Абасов, и поэтому дежурство никому не было в тягость. Служба никаких вольностей не терпела. Никогда нельзя угадать, к чему такая вольность может в конце концов привести, какой бедой или просчетом обернуться.

В середи не июня сорок первого года на Черноморском флоте проходили большие учения. Корабли возвратились на свою главную базу в Севастополь за сутки до войны, и в море оружие на кораблях находилось в полной боевой готовности.

На рассвете 22 июня 1941 года в 3 часа 15 минут на Севастополь совершили налет немецкие самолеты. Стало ясно - началась война. Только выступление В.М.Молотова по радио, прозвучавшее в полдень, всполошило всех, от мала до велика, в том числе летчиков авиаполка, в котором служил Мазаир Абасов. Война с фашистской Германией стала неотвратимым фактом.

В своей книге «Курсом к Победе» бывший нарком Военно-Морского флота Н.Г.Кузнецов пишет: «Уже в ночь на 23 июня 1941 года авиация Черноморского флота произвела первый налет на военные объекты Констанцы. 23 июня 1941 года последовало еще пять налетов: три на Констанцу и два на Сулину. Удалось уничтожить сотни тонн нефти, а добыча ее на какое-то время была сведена к нулю». Участвовал в тех налетах и Мазаир Абасов.

Александр Гритченко

Продолжение в следующем номере...

# Cümhuriyyət dövründə fəal Azərbaycan qadınları

Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cumhuriyyətinin yaranmasının 100 illiyinə artıq aylar qalır. Rəsulzadə təbirincə desək, yoxdan bir bayraq var edən cumhuriyyət fədailəri bu gün də hamı üçün zülmətdə işıq rolunu oynamaq qabiliyyətini itirməyib. Çünki hazırda yaşadığımız müstəqil Azərbaycan Respublikası məhz, onların beynində və ruhundakı milli ideologiyanın məhsuludur.

Cümhuriyyət fəadailərindən danışılarkən haqlı olaraq Məhəmməd Əmin Rəsulzadə, Mirzə Bala Məmmədzadə, Nəsib bəy Yusifbəyli, Xəlil bəy Xasməmmədov, Əlimərdan bəy Topçubaşov, Ceyhun və Üzeyir Hacıbəyli qardaşları, Fətəli xan Xoyski eləcə də başqalarının adı çəkilir. Düzdür, Cumhuriyyət fədailəri heç zaman unudulan deyil. Amma etiraf etmək lazımdır ki, AXC dövründə maarifçi, mədəni, ictimai sahədə fəaliyyət göstərən mütərəqqi fikirli Azərbaycan qadınlarının adları kölgədə qalır, o qədər də çəkilmir.



Cümhuriyyət dövrünün ziyalı qadınları əsasən mədəni- maarifçi, sosial ictimai sahədə fəaliyyət göstərirdilər. Həm pedaqoji, həm də publisistik fəaliyyətlərinin kökündə maarifçilik misiyası duran bu xanımlar heç də dövrün kişilərindən geri qalmırdılar. Buna səbəb əslində Cümhuriyyət hakimiyyətinin qadın məsələsi və qadın hüquqları istiqamətində apardığı düzgün siyasət idi. Şərqdə ilk dəfə olaraq qadına seçkidə iştirak etmək hüququ verilir. Yeni qız məktəbləri açılır və xanımlar hazır kadr kimi cəmiyyət üçün yetişdirilirdi. Məhz, bu addımlar cəmiyyətdə qadının da rolunu artırmış oldu.

Maraqlı məqam ondan ibarətdir ki, Cümhuriyyətin aktiv xanımlarının əksəriyyəti o dövrün tanınmış rəhbər maarifçilərinin həyat yoldaşları idilər. Məsələn, Əlimərdan bəy Topçubaşovun xanımı Pəri xanım Topçubaşova və Nəsib bəy Yusifbəylinin xanımı Şəfiqə xanım Yusifbəyli gimnaziyada dərs deməklə yanaşı, həm də maarifçilik istiqamətində qadın hüquqlarından bəhs edən yazılar da yazırdılar. Tarix üzrə fəlsəfə doktoru Firdovsiyyə Əhmədova da Cümhuriyyətin fəal qadınları haqqında danışarkən bu məqamı xüsusilə qeyd edib: "Milli istiqlal hərəkatının yüksəlişində qadınlarımızın da öz payı var. Onlar əsasən "Nəşri Maarif", "Nicat" cəmiyyətlərində ictimai, maarifçi və xeyriyyə işləri ilə məşğul olurdular."

Cümhuriyyət dövrünün fəal xanımlarından Şəfiqə Əfəndizadəni göstərmək olar ki, o, ali təhsil almamasına baxmayaraq həm publisist, həm də pedaqoq kimi çox dəyərli fəaliyyətə sahiblənib. Şəfiqə xanım sonradan imtahan verərək gimnaziyada dil və şəriət müəllimlsi işləyir. Əlavə olaraq Azərbaycanın ilk qadın jurnalı olan və baş redaktoru başqa bir maarifçi qadın Xədicə xanım Əliverdibəyova olan "İşıq" jurnalında, eləcə də digər "Şərq qadını", "Dəbistan" jurnallarında çalışmışdır. Cümhuriyyət parlamentində çalışan Şəfiqə xanım orada bütün Azərbaycan qadınlarını təmsil etmişdir.

Başqa maarifçi qadınlardan Nəsib bəy Yusifbəylinin xanımı İsmayıl bəy Qasoralının qızı Şəfiqə xanım Usubbəyovanı da göstərmək olar. O, Azərbaycanda az yaşamasına baxmayaraq eynilə həyat yoldaşı kimi cəmiyyət üçün nəsə etməyə çalışıb. Bu fəaliyyət də əsasən pedaqoji və publisistik istiqamətdə gedib. Milyonçu Murtuza Muxtarovun xanımı Liza Muxtarova da çox mütərəqqi fikirli xanım olub. O, qadın azadlığı, qadın təhsili məsələləri naminə əlindən gələn fəaliyyəti həyata keçirməyə çalışıb."

1875-ci ildən başlayan Milli Azadlıq Hərəkatı Cümhuriyyətin bərqərar olunması ilə nəticələndi. XIX əsrin sonu, XX əsrin əvvəllərində aktiv fəaliyyət göstərən və əsas maarifçi, ictimai tribuna olan mətbuat cümhuriyyətə də dəyərli ziyalılar ötürmüşdü. O dövrün gənc ikən fəaliyyətdə olan xanımları cümhuriyyət dönəmində yaşa dolsalar da, öz missiyalarını yenə də həyata keçirirdilər. Misal olaraq buna Tiflis gimnaziyasını bitirən ilk müsəlman qadın və Həsən bəy Zərdabinin xanımı Hənifə xanım Məlikova və Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanımı göstərə bilərik.

# ASAN hər bir vətəndaşın xidmətindədir

Respublikamızın günü-gündən inkişafı, hər bir sahədə yenidənqurma və davamlı inkişafı hər birimizə gün kimi aydındır. Asan xidmət mərkəzlərinin yaradılması Azərbaycan Respublikasının müasirliyə və innovasiyalara cavab verən dayanıqlığının sübutudur. Bu gün demək olar ki, Azərbaycanın hər bir bölgəsində ASAN xidmət mərkəzləri yaradılır, səyyar ASAN avtobus və vaqonu ilə Azərbaycan vətəndaşına lazımı köməklik göstərilir.

ASAN xidməti ölkəmizdə insana verilən dəyərin əsas göstəricilərindən biri adlandırsaq yanılmarıq. Bu gün qabaqcıl ölkələrdə Azərbaycanın bu sahədə təcrübəsi öyrənilir, Azərbaycan modeli ASAN Xidmət adı ilə təbliğ edilir.

Gənc və alicənab, işinibilən ASAN kollektivi hər bir sahədə işlərin öhdəsindən layiqincə gəlməyi bacarır.




ASAN xidmət bütün vətəndaşlar üçün fəaliyyət göstərir. Hər birimizin vaxtına qənaət etməklə, bir neçə işin eyni zamanda görülməsinə şərait yaradır. Bu hər birimiz üçün sevindiricidir. Lakin əhalinin yaşlı təbəqəsi üçün ASAN xidmət xüsusi önəm daşıyır. Biz veteranlar ASAN xidmətdə yaradılmış şəraiti yüksək qiymətləndiririk.

Bu yaxınlarda akademik Həsən Əliyev prospekti 36 ünvanında fəaliyyət göstərən 1 saylı ASAN xidmət mərkəzinə gedərək şəxsiyyət vəsiqəsinin dəyişdirilməsi ilə əlaqədar müraciət etdim.

Bu şöbədə yaradılmış qayda-qanun məni sözün əsl mənasında heyran etdi. Orada işləyən gənc əməkdaşlar nəzakətlə insanlara köməkliklərini əsirgəmirlər. Müraciət edən hər bir vətəndaşa onlar tərəfindən göstərilən böyük diqqət və qayğının şahidi oldum.

Bir sözlə, lazımı şərait yüksək səviyyədə təşkil olunubdur. Foto atelye, tibb məntəqəsi, hüquq məsləhətxanası və.s...

Şöbənin rəhbəri Pərvanə Səfərova müraciət edən hər bir vətəndaşa yerindəcə qanun çərçivəsində köməklik göstərir, onlara yardımçı olaraq, hamının hörmətini qazanmışdır. Orada olduğum müddətdə (40 dəqiqəyə yaxın) ora gələn insanların hamısı göstərilən xidmətlərdən razı qaldıqlarını bildirirdilər. Mən, bir Azərbaycan vətəndaşı olaraq burada yaradılmış şəraitdən qürur hissi keçirdim. Ona görə də bu gözəl şəraiti yaradanların hamısına öz minnətdarlığımı bildirirəm.

Fürsətdən istifadə edib ASAN xidmət kollektivini xüsusən də Pərvanə xanımı qarşıdan gələn yeni 2018-ci il münasibətilə Binəqədi rayon Veteranları adından təbrik edirəm. Onlara yeni ildə möhkəm cansağlığı, işlərində yeni-yeni uğurlar arzulayıram!

***Telman Hətəmov***
***Binəqədi Rayon Veteranlar Təşkilatının sədri, istefada olan polkovnik***

***ELAN***

Yasamal RPİ tərəfindən Babaşova Zənginar Mirzə qızına verilmiş AZE 00584258 seriallı şəxsiyyət vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**"Azərbaycan Veteranı" qəzetinin elektron ünvanına (az.veteran@mail.ru) məqalələrinizi göndərməklə bizimlə əməkdaşlıq edə bilərsiniz. Qeyd edək ki, "Azərbaycan Veteranı" qəzetində dərc olunan məqalələrdəki faktlara və məlumatlara görə müəllif məsuliyyət daşıyır. Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.**

**Əziz oxucular, "Azərbaycan Veteranı" qəzeti üçün abunə yazıla bilərsiniz!**

**Qəzetimizə abunə olmaq üçün:**
**Hesab nömrəsi AZ33İBAZ38090019442437115209**
**6 aylıq abunə haqqı - 7.5 AZN**
**1 illik abunə haqqı - 15 AZN**

**Qeyd: Əziz və hörmətli oxucular, "Azərbaycan Veteranı" qəzetinə abunə olmaq üçün "Azərmətbuatyayımı" ASC şöbələrinə, poçtlara, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatına və Təşkilatın rayon şöbələrinə müraciət edə bilərsiniz.**
**Əlaqə telefonları: (012) 440- 21-08 (012) 497- 63-58 (111)**

***Baş redaktor***
*Ülvi İBRAHİMLİ*

*Məsul katib*
*Şəhla QARAYEVA*

*Qəzet Ədliyyə Nazirliyində qeydiyyata alınıb.*
***Təsisçi:** Azərbaycan Respublikası Veteranlar Təşkilatının Rəyasət Heyəti*

*"Azərbaycan Veteranı" qəzeti.*
***VÖEN:***
*1701285981*
*verilmə tarixi - 23.11.2011*

***Ünvan:** Bakı şəhəri, Nərimanov rayonu, Kaveroçkin küçəsi, 34*
***Əlaqə telefonu:** 012 440-21-08*
***e-mail:** az.veteran@mail.ru*
***Dövlət qeydiyyat nömrəsi** - 3486*
***Dövlət qeydiyyat tarixi** - 19.10.2011*

*Qəzet ayda iki dəfə "Azərbaycan Veteranı" qəzetinin bilgisayar mərkəzində yığılır, səhifələnir və "Veteran Nəşriyyatı" mətbəəsində nəşr olunur.*
*Qiyməti 60 qəpik*
*Tiraj: 1250*